# Böyük şəxsiyyət: ümummilli lider



**"Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Buna da nail olmağa çalışır və çalışacağam". Bu sözlər xalqımızın böyük oğlu Heydər Əliyevə məxsusdur. Yaxın tariximiz sübut etdi ki, bu böyük şəxsiyyəti Allah-Taala elə bir dövrdə, elə bir məqamda Azərbaycana bəxş etdi ki, ölkənin, millətin ölüm-qalım məsələsi həll olunurdu. Nadir təfəkkür sahibi olan Heydər Əliyev Vətənimizi və millətimizi nəinki böyük bəlalardan qorudu, qurtardı, həm də dünyada tanıtdı, geniş inkişaf yoluna çıxardı.**

Xəyalım tez-tez məni uşaqlıq dövrünə — 1967-ci ildə doğulduğum Qərbi Azərbaycanın Amasiya rayonunun Oxçuoğlu kəndinə aparır. Ailəmizdə tez-tez siyasi söhbətlər gedərdi. Heydər Əliyev haqqında qürurla, fəxrlə, danışardılar. Xalqımızın müdrik oğlunun fenomen şəxsiyyəti, Azərbaycan üçün gördüyü nəhəng işlər, atam Hüseynqulunun, qardaşım, kimya-biologiya müəllimi Pənahın, əmim Cabbarın söhbətlərinin əsas mövzusu olardı. O zaman Qərbi Azərbaycanda Azərbaycan televiziya kanalları çətin tutulurdu. Atam çox çətinliklə də olsa hündür antena quraşdıra bilmişdi. Ümummilli liderin çıxışları zamanı bir kimsənin evdə yerimək və ya danışmaq həddi olmazdı...

1984-cü ildə oxuduğum Oxçuoğlu kənd orta məktəbini bitirib təhsilimi davam etdirmək üçün Azərbaycanın paytaxtı Bakıya gəldim. Ali məktəbə qəbul olundum. Ali təhsil aldığım dövrdə bu böyük şəxsiyyətin gördüyü işlər haqqında daha çox bilgi almağa çalışdım. Azərbaycanın keçmiş SSRİ dövründə inkişaf etmiş güclü, çoxsahəli sənayeyə malik və İttifaq büdcəsinə borcu olmayan iki respublikadan biri olduğunu gördüm. Bütün rayonlarda müxtəlif sənaye, emal obyektləri istismara verilmiş, aqrar sahə çox güclü inkişaf etmişdi. Bu nəhəng proses Heydər Əliyev siyasətinin nəticəsində baş vermişdi. 1982-ci ildə ulu öndər SSRİ-nin mərkəzinə rəhbər vəzifəyə aparıldıqdan sonra da Azərbaycanla əlaqəsi kəsilməmiş və onun davamlı qayğısı sayəsində respublika inkişafı davam etdirmişdi.

Heydər Əliyev kadr potensialına xüsusi diqqət yetirirdi. Hər il yüzlərlə gənc SSRİ-nin ən nüfuzlu təhsil müəssisələrinə oxumağa, mütəxəssislər isə təkmilləşdirmə kurslarına göndərilirdilər. Bu, çox böyük uzaqgörən bir siyasət idi. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra artıq ölkə bütün lazımi kadr ehtiyatına malik idi. Yeri gəlmişkən, kadr potensialının əhəmiyyətini dəlil kimi göstərmək üçün yadıma düşən bir detalı nəzərə çatdırmaq istərdim. Keçmiş SSRİ-nin tərkibində olan Özbəkistan SSR-nin birinci katibi Sov.İKP MK-nın baş katibi L.İ.Brejnevə müraciət edərək demişdi: "Yoldaş L.İ.Brejnev, Özbəkistanda kadr çatışmazlığı var, orta məktəblərdə dərs saatları tamamilə azalıb, ali məktəblərdə tələbələr həddindən artıq azlıq təşkil edir, belə getsə Özbəkistan xalqı ali təhsilli kadr tapa bilməyəcək". L.İ.Brejnev cavab vermişdi: "Sizə kadr lazımdır? Mən sizə kadr nə qədər lazım olsa verəcəyəm, mənə isə pambıq lazımdır, siz mənə pambıq verin". Beləliklə, Azərbaycanda həmin dövrdə istər orta, istər ali məktəblərdə gedən prosesləri, sosial-iqtisadi inkişafı, respublikanın bütün bölgələrindəki təbəddülatı danmaq ən azı nankorluqdur. Bu inkişaf yalnız ulu öndərin qətiyyətli iradəsi ilə mümkün olmuşdu.

1985-1987-ci illərdə hərbi xidmətə çağrıldım. Keçmiş SSRİ-nin ucqar məkanı olan Sibir bölgəsində Baykal-Amur Magistralının tikintisinə cəlb olunmuşduq. Demək olar ki, SSRİ-nin tərkibində olan bütün respublikaların nümayəndələri, əsgərlər və mülkilər bu nəhəng layihənin icrasında iştirak edirdilər. Qəsəbə və şəhərlərdəki digər xalqların nümayəndələri məndən soruşanda ki, hansı millətdənsən, çox sevincək cavab verərdim ki, azərbaycanlıyam. Tanımazdılar. Onda tez: "Heydər Əliyev, — deyərdim. Dərhal reaksiya verərdilər: "Həə! Azərbaycan, Heydər Əliyev!" Bu böyük ad bir növ bizim simvolumuza çevrilmişdi. Heydər Əliyevi uzaq bölgələrdə belə çox gözəl tanıyırdılar. Hətta Heydər Əliyevin onların millətindən olmadıqlarına təəssüflənən də kifayət qədər idi. Başqa xalqların nümayəndələri bu təəssüf yanğısını demək olar ki, aşkar deyirdilər. Bu münasibət bizə qürur verir və sevindirirdi, Heydər Əlyevin azərbaycanlı övladı olduğuna fəxr edirdik. Qulluq etdiyim iki il müddətində SSRİ-nin paytaxtı Moskvadan, Müdafiə Nazirliyi tərəfindən təsdiqlənmiş "Əla hərbi xidmətə görə", "Baykal-Amur Magistralının tikintisinə görə" medallarına, bir çox döş nişanlarına və hərbi rütbələrə layiq görüldüm, eləcə də o dövrdə əlçatmaz sandığım kommunist partiyasına üzv qəbul edildim. Heydər Əliyevin adını uca tutmaq, onunla fəxr etmək, adına layiq xidmət etmək, Azərbaycanın və xalqının şanını yüksəltmək, hər bir azərbaycanlı kimi mənim də borcum idi. O zaman mənə elə gəlirdi ki, xalqımızın böyük oğlu haqqında yetərincə məlumatlıyam. Ancaq gələcək həyatım sübut etdi ki, bu insanın dahilər dahisi olmasını, Vətəninə və öz xalqına qırılmaz tellərlə bağlı olmasını mən görməli və bir daha əmin olmalıyam.

Hərbi xidməti bitirdikdən sonra Bakıya qayıtdım. 1991-ci ildə SSRİ-nin dağılması nəticəsində Azərbaycan öz müstəqilliyini bərpa etsə də səriştəsiz, bacarıqsız rəhbərlərinin yanlış, yarıtmaz siyasətləri nəticəsində də bir neçə yerə parçalanmaq təhlükəsi ilə üzləşdi. Özbaşınalıqlar, qruplaşmalar, hakimiyyət uğrunda mübarizə xalqı vətəndaş müharibəsinə sürükləyirdi. Hamıya bəlli olduğu kimi, Vətənimizin hətta müstəqilliyini itirmək təhlükəsi reallıq idi. Bir yandan da Dağlıq Qarabağda torpaqlarımıza köçürülmüş ermənilər separatçılıq hərəkatına başlamışdılar. Ermənistanda aborigen azərbaycanlılara qarşı geniş təxribat, terror və soyqırım siyasəti həyata keçirilirdi. Xalqımız elan olunmamış müharibəyə cəlb olunmuşdu. Belə bir vaxtda xalq yalnız inandığı, dahi şəxsiyyət bildiyi lider xilas edə bilərdi. Bu şəxsiyyət xalqın böyükdən kiçiyə tanıdığı, etibar etdiyi, təkid və inadla rəhbərlik sükanına dəvət etdiyi Heydər Əliyev idi. Xalq öz seçiminə inanırdı və inandığı kimi də əmin idi. Həmin dövrdə baş verən hadisələrin şahidi olduğumdan hər günün, hər saatın və hətta hər dəqiqənin belə nə qədər ağır olduğunu, bütün xalqım kimi mən də görüb, yaşayırdım.

1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Ali Sovetinə sədr seçilməsi öz xalqına, Vətəninə rəhbərliyə yiyə durması, ölkənin uçurumdan, vətəndaş müharibəsi təhlükəsindən xilası demək idi. Necə deyərlər, oddan-alovdan çıxmış xalqın sevincinin demək olar ki, həddi-hüdudu yox idi, ümid doğrulmuş, inam geri qayıtmışdı.

Bu gün hamımıza məlum olduğu kimi, Heydər Əliyevin hakimiyyətə gəlişi nəinki Vətənimizi vətəndaş müharibəsi təhlükəsindən, parçalanmaqdan xilas etdi, müstəqilliyimiz günügündən möhkəmləndi, dövlətin hərtərəfli inkişaf strategiyası hazırlanaraq həyata keçirilməsinə başlanıldı. XX əsrin ən nəhəng kontraktlarından olan "Əsrin müqaviləsi" imzalandı. Qədim "Böyük İpək Yolu"nun bərpasına başlanıldı. Azərbaycan cəlbedici ölkəyə çevrildi. Xarici investorların Azərbaycanın həm neft, həm də qeyri-neft sektorlarına sərmayə yatırmaları da Heydər Əliyev siyasi kursunun uğurundan xəbər verir. Hazırda ölkəmiz öz yeddi neft-qaz kəmərləri ilə dünya bazarlarına karbohidrogen ehtiyatlarını ixrac edir. Ölkə yerləşdiyi regionun lider dövləti, mühüm geosiyasi məkanı, iqtisadi, siyasi və mədəniyyətlərarası mərkəzidir. Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı ölkə başçısı İlham Əliyev çıxışında transmilli layihələrin reallaşmasında təşəbbüskarlığın, təşkilatçılığın, bir sözlə, liderliyin Azərbaycana məxsus olduğu barədə deyib: "Bakı-Tbilisi-Ceyhan", "Bakı-Tbilisi-Ərzurum", "Şahdəniz", "TANAP", "TAP", "Cənub" qaz dəhlizi – bu layihələr regionun, Avropanın enerji xəritəsini dəyişir. Bunların hər biri nadir tarixi layihədir. Bu layihələr son 9 ildə icra edilib. Bakı-Tbilisi-Ceyhan 2006-cı ildə istifadəyə verilmişdir, dəhliz yaranmışdır. O dəhliz indi xidmət göstərir, yeni layihələr ortaya çıxır. Yenə də Azərbaycan liderlik keyfiyyətlərini ortaya qoyur".

Heydər Əliyev epoxası Azərbaycan xalqına, millətinə və gənclərinə bir örnək məktəbidir. Bir çox millətlərin yanğı və əlçatmaz həsrətlə baxdıqları Heydər Əliyev Məktəbi! Vətəni, xalqını sevən hər bir azərbaycanlı bu məktəbdən dərs almalı, bu məktəbin ən layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə irəliyə, daha yüksək nəticələrə və inkişafa doğru addımlamalıdır. Mən bir azərbaycanlı kimi, inamla deyirəm ki, Heydər Əliyev siyasi kursunun alternativi yoxdur. Bu strateji kursla dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə inamla irəliyə gedən bir Vətən övladı kimi ulu öndərin bu aforizmini fəxrlə deyirəm: "Mən fəxr edirəm ki, azərbaycanlıyam".

**Əmrah SÖYLƏMƏZLİ,**
**ASSA-İradə Beynəlxalq Xəbər Agentliyinin xüsusi müxbiri.**